# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№ 279/3** **30 sentyabr 2016-cı il**

**“Auditin keyfiyyətinə daxili nəzarətin həyata keçirilməsi haqqında Təlimat” layihəsinin müzakirəsinə dair**

Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 3.6-cı bəndinə müvafiq olaraq hazırlanmış “Auditin keyfiyyətinə daxili nəzarətin həyata keçirilməsi haqqında Təlimat”ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditin keyfiyyətinə daxili nəzarətin həyata keçirilməsi haqqında Təlimat” təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarına və sərbəst auditorlara öz fəaliyyətlərində “Auditin keyfiyyətinə daxili nəzarətin həyata keçirilməsi haqqında Təlimat”ın tətbiqini təmin etsinlər.
3. Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi M.Abbasova, həmin idarənin rəis müavini F.Məmmədova, Maliyyə və təsərrüfat idarəsinin təsərrüfat bölməsinin müdiri N.İsmayılova tapşırılsın ki, 2 (iki) həftə müddətində “Auditin keyfiyyətinə daxili nəzarətin həyata keçirilməsi haqqında Təlimat”ın mətninin çoxaldılmasını, auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılmasını təmin etsinlər.
4. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi M.Abbasova, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, oktyabr ayı ərzində Auditorlar Palatasında “Auditin keyfiyyətinə daxili nəzarətin həyata keçirilməsi haqqında Təlimat”a dair seminarın keçirilməsini təmin etsinlər.
5. Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, “Auditin keyfiyyətinə daxili nəzarətin həyata keçirilməsi haqqında Təlimat”ın Palatanın internet səhifəsində Azərbaycan, rus və ingilis dillərində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**